*26 sentyabr 2016-cı il ümumxalq səsverməsi günüdür*

# “Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında” Referendum Aktı insan hüquqları prizmasından

**Konstitusiya hər bir dövlətin konstitusion-siyasi və ictimai sisteminin tərkib hissəsidir. Konstitusiya ən yüksək hüquqi qüvvəyə malik olan Əsas Qanun kimi hüquqi mahiyyəti ilə bərabər, həm də, sosial-siyasi mahiyyətə malikdir. Hüquq elmində dəyişiklik edilmə üsuluna görə “çevik” və “sərt” konstitusiyalar fərqləndirilir. “Çevik” konstitusiyaların dəyişdirilməsi üsulu olduqca sadədir, belə konstitusiyalar, bir qayda olaraq, digər qanunların dəyişdirildiyi qaydada dəyişdirilir. “Sərt” konstitusiyalara dəyişiklik edilməsi üçün xüsusi şərtlər irəli sürülür (məsələn, əksər səs çoxluğu, ikiqat votum, referendumun keçirilməsi və s.). Müasir dövrdə “hibrid” konstitusiyaların meydana gəlməsi tendensiyası müşahidə edilir. “Sərt” konstitusiyalara dəyişiklik edilməsi “çevik” konstitusiyalara münasibətdə olduqca çətin olur. Konstitusiyanın sabitliyinin təmin edilməsi üçün əsas vasitə ona digər qanunlarla müqayisədə dəyişikliklər edilməsinin mürəkkəb prosedurunun (məsələn, referendumun keçirilməsi) nəzərdə tutulmasıdır. Azərbaycan Respublikasının Konstitusiyası hüquqi təbiətinə görə dəyişdirilmə üsulu baxımından məhz “sərt” konstitusiya modelinə aiddir. Belə ki, Konstitusiyanın 152-ci maddəsinə əsasən, Azərbaycan Respublikası Konstitusiyasının mətnində dəyişikliklər yalnız referendumla qəbul edilə bilər.**

Konstitusiya ictimai həyatda və ictimai münasibətlərdə baş verən proseslərlə və inkişafla əlaqədar olaraq dəyişikliyə məruz qala bilər. Əks halda dövlətin qanunvericilik sisteminin əsası qismində çıxış edən konstitusiya müasir dövrün çağırışlarına cavab verməyəcək, ölkənin hərtərəfli inkişafı, demokratik-hüquqi prinsiplərin bərqərar olması baxımından mühüm əhəmiyyət kəsb edən qlobal strateji prioritetlərə uyğun olmayacaqdır. Bu isə dövlətin hüquqi dayaqlarının sarsılması ilə nəticələnə bilər. Konstitusiya respublikamızda gedən və həyatın demək olar ki, bütün sferalarını əhatə edən islahatlardan, o cümlədən qanunvericilik sisteminin təkmilləşməsinə və hüquqiləşməsinə yönələn islahatlardan kənarda qala bilməz. Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklərin əsas səbəbi ölkəmizin yeni inkişaf mərhələsinə qədəm qoymasıdır. Bu mərhələnin əsas hədəfini insan hüquqlarına hörmət edilməsi prinsipinin aliliyinin təmin edilməsi təşkil edir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın hərtərəfli inkişafı, insan hüquq və azadlıqlarının daha səmərəli müdafiəsi naminə mühüm islahatlar həyata keçirilmiş və bu proses sürətlə davam etməkdədir. Hər yeni inkişaf mərhələsi insan hüquqlarının təmin olunması və idarəetmənin təkmilləşdirilməsi sahəsində yeni məqsədlər, prioritetlər doğurur ki, bu da yeni islahatların zəruriliyini gündəmə gətirir. Odur ki, insan hüquq və azadlıqlarının daha səmərəli təmini istiqamətində yeni qlobal prioritetlər nəzərə alınaraq, insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyinin artırılması, demokratik idarəetmə sisteminin təkmilləşdirilməsi istiqamətində tədbirlərin davamlılığının təmin edilməsi baxımından Konstitusiyanı müasir inkişaf tempinə uyğunlaşdırmaq üçün onun mətnində dəyişikliklər edilməsi zəruridir.

Konstitusionalizm tarixinin dərindən təhlili onu deməyə əsas verir ki, əbədi və dəyişilməz konstitusiyalar olmayıb və yoxdur. Ən “sərt” konstitusiyalardan sayılan ABŞ Konstitusiyasına 27 əlavə və dəyişiklik qəbul edilmişdir. Uzun illərin demokratik-hüquqi Avropa dövlətlərinin əsas qanunları da dəfələrlə dəyişikliyə məruz qalmışdır. Almaniyanın Əsas Qanununa, yəni Konstitusiyasına dəyişikliklər və əlavələr parlamentin hər iki palatasında - bundestaqda və bundesratda üçdə iki səs çoxluğu ilə qəbul edilən xüsusi konstitusiya qanunları formasında edilir. 1949-cu ildə qəbul edilmiş Almaniya Konstitusiyasına əlavə və dəyişiklikləri nəzərdə tutan 40-dan çox xüsusi konstitusiya qanunları qəbul edilmişdir. Fransa Konstitusiyası bir neçə dəfə onun məzmununa əhəmiyyətli təsir göstərən dəyişikliklərə məruz qalaraq yenilənmişdir.

“Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında” Referendum Aktı layihəsi insan hüquqları baxımından mühüm əhəmiyyət kəsb edir. Belə ki, təklif edilən dəyişikliklərin bir qismi bilavasitə insan hüquqlarının və əsas azadlıqların səmərəli təmin edilməsi ilə bağlıdır. Referendum Aktı layihəsinin 2.1-ci bəndində qeyd olunur ki, Konstitusiyanın 24-cü maddəsində I və II hissələr, müvafiq olaraq, II və III hissələr hesab edilsin və həmin maddəyə aşağıdakı məzmunda I hissə əlavə edilsin: “I. İnsan ləyaqəti qorunur və ona hörmət edilir.”. İlk növbədə qeyd etmək lazımdır ki, ləyaqət insan hüquqlarının əsasını və bünövrəsini təşkil edir. İnsan hüquqları doktrinası bütövlükdə ali bir dəyər olan insan ləyaqətinə əsaslanır. Ləyaqət - yaşından, cinsindən, dilindən, dinindən, irqindən, əmlak vəziyyətindən, siyasi mənsubiyyətindən və digər əlamətlərdən asılı olmayaraq hər bir insanın (o cümlədən uşağın, hətta ana bətnində olan uşağın da) toxunulmaz, pozulmaz və ayrılmaz təbii keyfiyyətidir. Ləyaqətindən imtina etmək hüquq və azadlıqlarından imtina etməyə, hüquq və azadlıqlarından imtina etmək isə ləyaqətindən imtina etməyə bərabərdir. İnsan hüquqları doktrinasında ləyaqət konsepsiyası mərkəzi yerlərdən birini tutur. İnsan hüquqlarına dair bütün beynəlxalq hüquqi aktlar insan ləyaqətinin toxunulmazlığı və ona hörmət olunması prinsipinə əsaslanır. İnsan hüquqları sahəsində fundamental sənəd olan Ümumdünya İnsan Hüquqları Bəyannaməsində bununla bağlı bir sıra normalar mövcuddur. Bəyannamənin preambulasına əsasən, bəşər ailəsinin bütün üzvlərinə xas olan ləyaqət hissinin və onların bərabər və ayrılmaz hüquqlarının tanınması azadlıq, ədalət və ümumi sülhün əsasıdır. Bəyannamənin 1-ci maddəsinə əsasən isə, bütün insanlar ləyaqət və hüquqlarına görə azad və bərabər doğulurlar. İnsanın hüquq və azadlıqları birbaşa olaraq məhz ləyaqətdən irəli gəlir. İnsanın hüquq və azadlıqlarını qorumaq üçün ilk növbədə onun ləyaqəti dövlət tərəfindən qorunmalıdır. 1975-ci il tarixli Helsinki Yekun Aktında dövlətlərin insan şəxsiyyətinə məxsus ləyaqətdən irəli gələn və insanın azad və hərtərəfli inkişafı üçün əsas olan mülki, siyasi, iqtisadi, sosial, mədəni və digər hüquq və azadlıqların səmərəli həyata keçirilməsini təşviq və inkişaf etdirəcəkləri qeyd edilir. Ləyaqət, həmçinin, insana dövlət tərəfindən verilən ictimai dəyərdir. Ləyaqətin dövlət tərəfindən qorunması insanın xoşbəxt həyat sürə bilməsi üçün ən vacib şərtlərdən biridir. Ləyaqəti tapdanmış insan xoşbəxtlik hissini itirmiş olur. Ləyaqət konsepsiyasına əsasən, insan ən ali, ən dəyərli, ən dahi varlıqdır. Hələ qədim yunan mütəfəkkiri Sofokl bildirirdi ki, “Yer üzündə ali varlıqlar çoxdur, lakin insandan alisi yoxdur.”. Dahi fransız hüquqşünası və filosofu Şarl Lui de Monteskye insan ləyaqətinə böyük önəm verərək yazırdı: “Mən ilk növbədə İnsanam, sonra isə fransızam”. Tanınmış alman filosofu Lüdviq Feyerbaxın fikrincə isə, ləyaqət - insanın böyüklüyü, onun ən ali dəyəridir. Ləyaqət nəinki fəlsəfi-etik, həm də konstitusion-hüquqi kateqoriyadır. XVIII əsrin sonları, XIX əsrin əvvəllərində ləyaqət konstitusion mühafizə obyektinə çevrilməyə başladı. XX əsrdə isə “insan ləyaqəti” kateqoriyası bir çox ölkələrin konstitusiyalarının ayrılmaz elementini təşkil etdi. Almaniya Konstitusiyasının 1-ci maddəsində deyilir: “İnsan ləyaqəti toxunulmazdır. Ona hörmət etmək və onu qorumaq bütün dövlət hakimiyyətinin vəzifəsidir”. İsveçrə Konstitusiyasının 7-ci maddəsinə əsasən, insan ləyaqətinə hörmət edilməlidir və o qorunmalıdır. İtaliya Konstitusiyasının 3-cü maddəsinə görə, bütün vətəndaşlar bərabər ictimai ləyaqətə malikdirlər. İspaniya Konstitusiyasının 10-cu maddəsinə müvafiq olaraq, şəxsiyyətin ləyaqəti siyasi nizamın və ictimai sülhün əsasıdır. Yunanıstan Konstitusiyasının 2-ci maddəsinə əsasən, insan ləyaqətinə hörmət etmək və onu qorumaq dövlətin birinci dərəcəli vəzifəsidir. Polşa Konstitusiyasının 30-cu maddəsində göstərilir: “İnsanın anadangəlmə və ayrılmaz ləyaqəti insan və vətəndaş hüquq və azadlıqlarının mənbəyini təşkil edir. O, toxunulmazdır, ona hörmət edilməsi və onun qorunması hakimiyyət orqanlarının vəzifəsidir.”. “Ləyaqət” kateqoriyasının iki aspektini fərqləndirmək olar: insan ləyaqətinə hörmət insan hüquqları hüququnun ümumtanınmış prinsipi kimi və ləyaqət subyektiv hüquq kimi. Bir sıra müasir demokratik-hüquqi konstitusiyalar “ləyaqət” kateqoriyasının birinci aspektini ehtiva edir. Qeyd etmək lazımdır ki, “ləyaqət” kateqoriyasının ikinci aspekti, yəni subyektiv hüquq kimi ləyaqət Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapmışdır. Konstitusiyanın 46-cı maddəsinə müvafiq olaraq, hər kəsin öz şərəf və ləyaqətini müdafiə etmək hüququ vardır. Referendum Aktı layihəsində təklif edilən “İnsan ləyaqəti qorunur və ona hörmət edilir” müddəasının Konstitusiyanın 24-cü maddəsinə əlavə edilməsi isə “ləyaqət” kateqoriyasının həm də çox vacib olan birinci aspektinin, yəni “ləyaqətə hörmət edilməsi” aspektinin Azərbaycan Konstitusiyasında öz əksini tapması ilə nəticələnəcək. Bu isə demokratik-hüquqi konstitusiya ruhuna və konstitusionalizm prinsiplərinə tamamilə uyğundur. İnsan ləyaqətinin qorunmasının və ona hörmət edilməsinin Əsas Qanunda bəyan edilməsi Azərbaycan dövlətinin insanı təbii hüquq və azadlıqlara malik ən ali varlıq kimi qəbul etməsinin göstəricisidir.

Referendum Aktı layihəsinə əsasən, Konstitusiyanın 24-cü maddəsinə təklif edilən digər əlavə hüquqlardan sui-istifadə ilə bağlıdır. Layihədə qeyd edilir ki, III hissəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin: “Hüquqlardan sui-istifadəyə yol verilmir.”. İlk növbədə onu qeyd etmək lazımdır ki, insan hüquqlarının və əsas azadlıqların Konstitusiyada və digər qanunvericilik aktlarında təsbit edilməsi və səmərəli şəkildə təmin edilməsi, müdafiəsi və onlara hörmət olunması nə qədər vacibdirsə, bu hüquq və azadlıqlardan sui-istifadə edilməsi cəmiyyət üçün bir o qədər təhlükəlidir. Hüquqlardan sui-istifadə insan hüquqlarının mənəviyyata və əxlaq normalarına zidd şəkildə həyata keçirilməsidir. İnsan hüquqlarının həyata keçirilməsinin əsas şərti bu hüquqların qanun çərçivəsində, qanunauyğun şəkildə və qanunla nəzərdə tutulmuş qaydada həyata keçirilməsidir. Hüquqlardan sui-istifadə, həm də, hüquq pozuntusunun xüsusi formasıdır, *sui generis* hüquq pozuntusudur. Hüquqlardan sui-istifadə nəticəsində insana, cəmiyyətə və dövlətə ciddi zərər dəyir. Hüquqlardan sui-istifadə hüquq və azadlıqların, onların əsl mahiyyətinə və təyinatına zidd olaraq həyata keçirilməklə digər şəxslərin hüquqlarının pozulmasına gətirib çıxarır. Hüquqlardan sui-istifadənin qadağan edilməsi müasir dövrdə beynəlxalq insan hüquqları hüququnun ümumqəbuledilmiş prinsipi kimi nəzərdən keçirilə bilər. İstər milli qanunvericilikdə, o cümlədən konstitusiyada, istərsə də beynəlxalq hüquqi aktlarda, o cümlədən insan hüquqlarına dair fundamental beynəlxalq sənədlər olan Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktda, İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktda, İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında




Konvensiyada təsbit edilmiş istənilən hüququn qanuna, insan hüquqlarının mahiyyətinə zidd şəkildə həyata keçirilməsi, yəni bu hüquqlardan sui-istifadə edilməsi qanunla qadağan edilməlidir. Bu, digər şəxslərin hüquq və azadlıqlarının, mənəviyyatın və ictimai qaydanın, qanunçuluğun və təhlükəsizliyin təmin edilməsi üçün olduqca vacibdir. Məhz bu prizmadan çıxış edərək bir sıra demokratik-hüquqi dövlətlərin konstitusiyalarında bu prinsip öz əksini tapmışdır. Yunanıstan Konstitusiyasının 25-ci maddəsinə əsasən, hüquqlardan sui-istifadəyə yol verilmir. Bolqarıstan Konstitusiyasının 57-ci maddəsinə müvafiq olaraq, hüquqlardan sui-istifadə edilməsinə yol verilmir. Niderland Konstitusiyasında hüquqlardan sui-istifadəyə görə məsuliyyət prinsipi öz əksini tapmışdır. Məsələn, ifadə azadlığını və toplaşmaq azadlığını nəzərdə tutan 7-ci və 9-cu maddələrdə bu prinsip birbaşa olaraq təsbit olunmuşdur. Yaponiya Konstitusiyasının 12-ci maddəsində deyilir: “Xalq hüquqlardan və azadlıqlardan hər cür sui-istifadə hallarından çəkinməlidir və onlardan yalnız ictimai rifah maraqları naminə istifadə olunmasına məsuliyyət daşıyır.”.

Hüquqlardan sui-istifadəyə yol verilməməsi ilə bağlı müddəanın Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunması insan hüquq və azadlıqlarının səmərəli təmininə, hüquq qaydasının mühafizəsinə xidmət edir.

Referendum Aktı layihəsində nəzərdə tutulmuş digər dəyişiklik sərbəst toplaşmaq azadlığı ilə bağlıdır. Azərbaycan Respublikası Konstitusiyasının 49-cu maddəsinə əsasən, “Hər kəsin başqaları ilə birlikdə sərbəst toplaşmaq azadlığı vardır. Hər kəsin başqaları ilə birlikdə müvafiq dövlət orqanlarını qabaqcadan xəbərdar etməklə dinc, silahsız yığışmaq, yığıncaqlar, mitinqlər, nümayişlər, küçə yürüşləri keçirmək, piketlər düzəltmək hüququ vardır.”. Layihənin 8-ci bəndində 49-cu maddənin II hissəsində “etməklə” sözündən sonra “, ictimai qaydanı və ya ictimai əxlaqı pozmamaq şərtilə,” sözlərinin əlavə edilməsi təklif olunur. İlk növbədə qeyd etmək lazımdır ki, Konstitusiyanın III fəsli bütövlüklə əsas insan və vətəndaş hüquq və azadlıqlarına həsr edilmişdir. Lakin ayrı-ayrı insan hüquqlarını ehtiva edən normalarda bu hüquqların məhdudlaşdırılması üçün əsaslar müəyyən edilməmişdir. Belə normalardan biri də sərbəst toplaşmaq azadlığını nəzərdə tutan 49-cu maddədir. Xüsusilə vurğulamaq lazımdır ki, insan hüquqlarının məhdudlaşdırılması dedikdə, onların məzmununun və mahiyyətinin deyil, həyata keçirilməsinin məhdudlaşdırılması başa düşülməlidir. İnsan hüquqlarının məhdudlaşdırılması dedikdə, fərdin dövlətə, cəmiyyətə və digər şəxslərə zərər vura biləcək davranışının hüquq normaları ilə nəzərdə tutulmuş qaydada məhdudlaşdırılması başa düşülməlidir. Yəni, bu cür məhdudlaşdırma insan hüquqlarının mahiyyətinə və əsas prinsiplərinə xələl gətirmir. Məhz bu baxımdan müasir dövrdə məhdudlaşdırma ictimai asayişin təmin edilməsinin üsullarından biri kimi çıxış edir. Konstitusiyanın 49-cu maddəsinə təklif edilən dəyişiklik hüquqi dövlətin əsaslarını təşkil edən qanunçuluğun və hüquq qaydasının, insanların təhlükəsizliyinin təmin edilməsi, ictimai dəyərlərin və mənəviyyatın qorunması, digər şəxslərin hüquq və azadlıqlarının müdafiəsi məqsədi daşıyır. Sərbəst toplaşmaq azadlığının məhdudlaşdırılması ilə bağlı müddəalar insan hüquqlarına dair fundamental beynəlxalq hüquqi aktlarda, həmçinin ayrı-ayrı dövlətlərin konstitusiyalarında öz əksini tapmışdır. Məsələn, insan hüquqları sahəsində ən mühüm regional beynəlxalq müqavilə olan Avropa İnsan Hüquqları Konvensiyasının dinc toplaşmaq azadlığını nəzərdə tutan 11-ci maddəsinə müvafiq olaraq, bu hüquqların həyata keçirilməsi milli təhlükəsizlik və ictimai asayiş maraqları naminə, iğtişaşın və cinayətin qarşısını almaq üçün, sağlamlığın və mənəviyyatın qorunması üçün və ya digər şəxslərin hüquq və azadlıqlarının müdafiəsi üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan məhdudiyyətə məruz qala bilər. Almaniya Konstitusiyasının 8-ci maddəsinə əsasən, dinc toplaşmaq azadlığı qanunla məhdudlaşdırıla bilər. İtaliya Konstitusiyasının 17-ci maddəsinə əsasən, hakimiyyət ictimai yerlərdə toplaşmağı təhlükəsizliyi və ictimai qaydanı təmin etmək üçün qadağan edə bilər. İspaniya Konstitusiyasının 21-ci maddəsinə görə, ictimai yerlərdə toplanışlar və nümayişlər insanlara və əmlaka zərər vura biləcək ictimai qayda pozuntularının qarşısını almaq məqsədilə hakimiyyət tərəfindən qadağan edilə bilər. Danimarka Konstitusiyasının 79-cu maddəsinə əsasən, toplanışlar ictimai qaydaya təhlükə törətdiyi halda qadağan edilə bilər. Göründüyü kimi, Azərbaycan Konstitusiyasının 49-cu maddəsinə təklif edilən dəyişiklik demokratik-hüquqi dövlətlərin müvafiq konstitusion normaları ilə həmahəngdir.

Konstitusiyaya təklif edilən insan hüquqları ilə bağlı mühüm dəyişikliklərdən biri də hüquq və azadlıqların məhkəmə təminatı ilə bağlıdır. Referendum Aktı layihəsinin 14-cü bəndinə əsasən, “Hər kəsin hüququ var ki, onun işinə qərəzsiz yanaşılsın və həmin işə inzibati icraat və məhkəmə prosesində ağlabatan müddətdə baxılsın.”. İlk növbədə onu qeyd etmək lazımdır ki, işə ağlabatan müddətdə baxılması hüquqi dövlətin əsasını təşkil edən ədalət mühakiməsinin əsas elementlərindən biridir. Beynəlxalq hüquqda ağlabatan müddətin insan hüquqlarının səmərəli təmin edilməsi baxımından mühüm əhəmiyyət daşıması ilə bağlı bir sıra mühüm normalar mövcuddur. Beynəlxalq insan hüquqları hüququnun ən mühüm mənbələrindən biri olan Avropa İnsan Hüquqları Konvensiyasının 6-cı maddəsinə əsasən, hər kəs onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsi ilə, ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir. Avropa Şurası Nazirlər Komitəsinin 1997-ci ildə qəbul etdiyi qətnaməyə əsasən, ədalət mühakiməsinin həyata keçirilməsinin hədsiz ləngiməsi nəinki proses iştirakçılarına ziyan vurur, həm də hüquqi dövlətə təhlükə törədir. Avropa İnsan Hüquqları Məhkəməsi (Avropa Məhkəməsi) dəfələrlə vurğulamışdır ki, ədalət mühakiməsinin həyata keçirilməsinin yubadılması onun səmərəliliyini şübhə altına alır. Avropa Məhkəməsi tərəfindən ağlabatan müddətin konkret olaraq rəqəmlə hansı müddəti əhatə etməsi müəyyən edilməmişdir. Avropa Məhkəməsinin mövqeyinə görə bu məsələ situasiyadan asılı olaraq hər bir işə konkret fərdi yanaşma tələb edir. Ağlabatan müddətin təyin edilməsi üçün Avropa Məhkəməsi tərəfindən 4 kriteriya müəyyən edilmişdir: işin mürəkkəbliyi, milli səviyyədə məhkəmə proseslərində ərizəçinin davranışı, müvafiq işə baxan milli məhkəmə orqanlarının davranışı, ərizəçinin qanuni maraqlarının və hüquqlarının həyata keçirilməsi üçün vaxt faktorunun əhəmiyyəti. Beləliklə, ağlabatan müddət qeyd olunan kriteriyalar nəzərə alınmaqla işin hallarının öyrənilməsi nəticəsində müəyyən edilir. Ağlabatan müddətlə bağlı müddəalar ayrı-ayrı dövlətlərin konstitusiyalarında da öz əksini tapmışdır. Niderland Konstitusiyasının 15-ci maddəsinə əsasən, işə məhkəmədə baxılmasından əvvəl azadlıqdan məhrum edilmiş şəxsin üzərində məhkəmə ağlabatan müddətdə keçirilməlidir. İsveçrə Konstitusiyasının 29-cu maddəsinə görə, hər kəs məhkəmə və inzibati instansiyalar qarşısında bərabər və ədalətli rəftar, həmçinin qərarın ağlabatan müddətdə çıxarılması hüququna malikdir. Göründüyü kimi, işə istər inzibati icraat, istərsə də məhkəmə prosesində ağlabatan müddətdə baxılması müasir beynəlxalq hüququn tələbi olmaqla yanaşı, bir sıra hüquqi dövlətlərin əsas qanunlarında bilavasitə öz əksini tapmışdır. Məşhur ingilis kəlamında deyildiyi kimi “Gecikmiş ədalət mühakiməsi qüsurludur” (“Justice delayed, justice denied”). Məhz bu baxımdan Konstitusiyaya təklif edilən işə inzibati icraat və məhkəmə prosesində ağlabatan müddətdə baxılması ilə bağlı müddəa insan hüquqlarının və əsas azadlıqların məhkəmə təminatını gücləndirməklə hüquqi dövlətin ən mühüm prinsiplərindən olan ədalət mühakiməsinin səmərəli, qərəzsiz və şəffaf həyata keçirilməsi prinsipinin möhkəmlənməsinə gətirib çıxaracaq.

Göründüyü kimi, Konstitusiyaya təklif edilən dəyişikliklər demokratik-hüquqi dəyərlərə və konstitusionalizm prinsiplərinə tamamilə uyğundur. Dəyişikliklərin əsas məqsədi vətəndaş cəmiyyətinin, demokratik və səmərəli idarəetmənin təşkilini daha dolğun tənzimləyən müddəaların Konstitusiyaya daxil edilməsi, insan hüquqlarının və əsas azadlıqların daha dolğun şəkildə təsbit edilməsi və bununla da Konstitusiyanın tamlığını, bütövlüyünü, demokratikliyini və hüquqiliyini təmin etməkdir.

Beləliklə, Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklər edilməsi dövlətin sürətlə artan siyasi, hüquqi, sosial, iqtisadi inkişaf tempindən irəli gələrək Konstitusiyanın mətninin daha da təkmilləşdirilməsi və onun insan hüquqlarının əsas prinsiplərinə, müasir konstitusionalizmin tələblərinə uyğunlaşdırılmasına xidmət edir.

**Zaur ƏLİYEV,**
**Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin İnsan hüquqları və informasiya hüququ üzrə YUNESKO kafedrasının müəllimi, hüquq üzrə fəlsəfə doktoru.**